Azad Azərbaycan 2
6 oktyabr / 2020

# Hər gün Aşuradır, hər yer Kərbəla...

Dünyada haqsızlıq baş alıb gedir!
Ümidlər puç olub, xəyallar itir...
İnsanı yaşadan, fəqət ümiddir!
Ümidsiz insan da intihar edir!

Haqsızlıq önündə bəşər diz çökür!
Dünya qan ağlayır, göz yaşı tökür!
Dünyanı kapital idarə edir
"Covid"lər insanlıq binasın sökür!..
Hər gün Aşuradır, hər yer Kərbəla...
Dünyada xeyirlə şər dava edir!
Zülmə baş əyməyən imam Hüseynin
Bayrağı altında bəşər yol gedir!..

Ümid Allahadır! Deyib yaradan:
Heç kimə tökdürmə göz yaşını sən,
Göz yaşı tökülən kömək istəsə,
Kömək edəcəyəm ona biləsən!

Sığınıram aləmlərin Rəbbinə!
Yaratdığı şeytanların şərindən!..
O şeytan ki, ya insandır, ya cindir..
Törətdiyi bütün pisliklərindən!

**Həsən Şirinov**